

## Gülnarə Cəmaləddin

* * *

Sən elə oynayırsan,
Dərdi, qəmi yox kimi.
Oyna, başına dönüm,
Gözü, könlü tox kimi.

Başına dönüm, oyna,
Oyna, doyunca oyna.
Boyunnan yuxarı yox,
Oyna, boyunca, oyna.

Bu nə havadı belə,
Səni başdan elədi.
Üzünü gor görmüşün
İşi başdan belədi.

Oyna, başına dönüm,
Nə göyçək oynayırsan.
Ya sən dəli olubsan,
Ya gerçək oynayırsan.

### Bu ocaq

Bu ocaqda əlim daha isinməz,
Kül olası baxtımmıdı bu ocaq?!
Səngiyəndə qar üzünə bələnən,
Çevriləsi taxtımmıdı bu ocaq?!

Fırlar kimi öz köçünə dövrələr,
Müxənnətlər halay çəkər başında.
Qazanında halal tikə qaynamaz,
Haram bitib bu ocağın daşında.

Keçir məni ağrıların gözündən,
Dərdlərimi daşa desəm, daş ağlar!
Bu dünyanın ocaq daşı satılıb,
Bağla daha ürəyinə daş, ağla!

### Sınıq güzgüləri oxşayıram mən

Nənəm ömrümüzün nağıl payıydı,
Gizli dərdlərindən nağıllanardı;
Bir sınıq güzgüyə baxıb hər gecə
Nənəm gizli-gizli sığallanardı.

Getmişdi davaya babam nə vaxtdı,
Dönüşü ümidsiz, yolları qardı.
Şəklinin önündə cehizlərindən
Nənəmin çatlamış çırağı vardı.

Qara çaydanı tək elə hər axşam
Qara taleyinə sızlardı nənəm.
Silib ətəyilə nəmli gözünü,
Dərdini hamıdan gizlərdi nənəm.

Gəlir yuxumaca, gəlir hər gecə,
Yarımçıq bir nağıl yaşayıram mən.
O vaxtdan dərdimi alıb başıma
Sınıq güzgüləri oxşayıram mən.

### Sevənlər günü

Bu gün 14 fevral,
sevənlər günü…
Nə görüşünə gələcəyəm,
nə sevəcəyəm səni.
Gül gətirməyəcəyəm sənə,
üstündə göz yaşı var
güllərin.
Bilirəm pəncərənin
o üzündə dayanmısan,
qoynunda çarpazdı
qolların.
Silmə
həsrətinin hənirinnən
tərləmiş pəncərəni,
gözləmə,
bağrına qar ələnib yolların.
Sevənləri öldürüb,
sevgi gününə tələsdi adamlar.
Qırmızı yalanlarla aldatdı
bir- birini sevənlər.
Mənsə al rəngli yalanla
oyatmaq,
oynatmaq istəmirəm qəlbini,
istəmirəm, canım.
İstəsən günü sabah
sənə qanadı qırılmış quş rəsmi gətirərəm,
ya bir başı kəsilmiş bayraq.
Mən belə gördüm sevgiləri,
bələyində güllələnmiş.
Ya bir cüt qərənfil gətirim,
üstünə qan çilənmiş?!

### Tox olmaq istəyirəm, İlahi, tox

Qaçıram,
əynimə biçilmiş,
çiynimə çəkilmiş
mələk ağrılarımdan.
Yıxılıram,
əllərimin günahından,
gözlərimin yaşınnan.
Əzilirəm,
dilimin ucunnan,
sözlərimin acınnan.
Tox olmaq istəyirəm, ilahi, tox!
Bir hüznlü nəğmənin sədasında,
bir bənövşə kölgəsində
qurulmuş dar ağacınnan
bu yaz gecəsində
asılıb, ölməyim gəlir.
Yox olmaq istəyirəm, ilahi, yox!
Bu dünyanın əzablarından doğulub,
ümidlərində boğulub,
bir iynə ucu boyda işığın qədər
çox olmaq istəyirəm, ilahi, çox!..

***

Sən
Hər şeydən ucada.
Sən
Hər şeydə varmışsan!
Otda, güldə, ağacda.
Sən
Hər şeydə bir azca.
Bəs niyə ömür boyu
bir çaşqınlıq içində
aramışam mən
Sən-i,
aramışam uzaqda?!

### Qəhvə rəngi

Sənə uzatdığım
Xanım çiçəklərin sarısı,
Sənsizliyə gedən yolun tən yarısı,
Sənə qədər gördüyüm yuxuların hamısı -
Qəhvə rəngi.

Sənnən sonra görəcəkli günlərim,
Sənsizlikdə ötüb keçən saatların
Bağır yaran hönkürtüsü,
Və yuxularımda gördüyüm
bədöy atların kişnərtisi,
nal səsləri, əcəl zəngi -
Qəhvə rəngi.

Əlimi uzadıb çata bilmədiyim dar ağacı,
Qarabağda çiçəyini vaxtsız tökmüş nar ağacı,
Ruhumu göynədən «Cəngi»
hamısı
hamısı
Qəhvə rəngi!

### Qəfil tökdü bu dünyanın yağışı

Qəfil tökdü bu dünyanın yağışı,
Yetim arzum səpələndi dalınca.
Ağlayırdım gilə-gilə bu qışı,
Nəm üzümü söykəyərək balınca.

Ocaq çatdım alovunnan, odunnan,
Gözlərimdə isinmirdi gözlərin.
Əriyirdi damcı-damcı dilimdə,
Ürəyimdə şama dönən sözlərin.

Əllərini çox söykəmə qəlbinə,
Üşüyəcək isitsən də odunda.
Bu sevgini əllərinə pıçılda,
Bəlkə qaldı əllərinin yadında.